# Los-Ancelesdə "Babək", "Nəsimi" soraqlı görüş

**Azərbaycanın Los-Ancelesdəki baş konsulluğunda Xalq artisti Rasim Balayevlə görüş keçirilib.**





Bu barədə Azərbaycanın Kaliforniyadakı diplomatik missiyasının mətbuat xidməti xəbər yayıb. Bildirilib ki, görüşdə həyat, sənət, qürbətdə Azərbaycan mədəniyyətinin təbliği ətrafında maraqlı diskussiya aparılıb. Konsulluğun sosial şəbəkə hesabında verilən məlumatda deyilir: "Azərbaycan Respublikasının Xalq artisti cənab Rasim Balayevlə baş konsulluğumuzda keçirdiyimiz möhtəşəm bir axşam! Bizə qoşulduqları və belə maraqlı müzakirədə iştirak etdikləri üçün əziz icma üzvlərimizə də ürəkdən minnətdarıq".

Görüşdə musiqiçilər Emin Kərimi və Nail Qurbanovun ifaları səsləndirilib.

***XQ***

Xalq qəzeti.- 2025.- 5 aprel (№65).- S.10.